# MasterFiber® 249

## Tökmə betonların gücləndirilməsi üçün struktur polipropilen lifi

### MATERİALIN TƏQDİMATI

**Master®Fiber 249** – təbii polipropilen homo polimerdən preslənib çıxarılır və möhkəmləndirici məhlulda bərkidilməsi məqsədilə burulmuş profil formasına salınır. Beton möhkəmləndikdə bu material dayanıqlılıq və elastiklik verir.

Bu lif xüsusilə kimyəvi təsirlərə qarşı yüksək dayanıqlılıq tələb olunan qələvi mühitlər, eləcə də korroziyalı və risk daşıyan mühitlər üçün uyğundur.

**ASTM C1116 / C1116M**
**EN 14889-2/ 2** standartına uyğundur.

### TƏTBİQ SAHƏSİ

**Master®Fiber 249** aşağıdakı yerlərdə tətbiq oluna bilər:

- Səki betonlarında;
- Sənaye təyinatlı döşəmə betonlarında;
- Yığma beton konstruksiyalar;
- Quru qarışım beton istehsalında (beton kanalizasiya boruları və mənfəzlərin istehsalında) metal armaturu əvəz edir.

### TƏTBİQ METODU

**MasterFiber® 249**, su və qatqılardan sonra beton mikserinə əlavə olunmalı və betona tam şəkildə paylanması üçün kifayət qədər qarışdırılmalıdır.
**MasterFiber® 249**, Master Builders Solutions brendinin bütün qatqıları ilə, xüsusilə sıxılma nəticəsində yaranan çatlara qarşı betonları qorumaq məqsədilə döşəmə işlərində **MasterLife® SRA 872 SA** ilə birlikdə istifadə oluna bilər.

### QABLAŞDIRMA

**Master®Fiber 249**, açıq şəkildə 4 kq-lıq polietilen paketlərdə qablaşdırılır.

### TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| **Material** | Poliolefin 100% (rəngsiz) |
|---|---|
| Strukturu | Çoxlifli |
| Ekvivalent diametri | 0.85 mm |
| Uzunluğu | 48 mm |
| Uzunluq/diametr nisbəti | 56.5 |
| Gərilməyə qarşı dayanıqlığı | 400 MPa |
| Elastiklik modulu | 4.7 GPa |
| Su hopdurması | Yox |
| Sıxlığı | 0.91 q/sm$^3$ |
| Turşu/qələviyə qarşı dayanıqlığı | Yüksək |
| Forması (köndələn kəsikdə) | Ellips formalı |
| Ərimə temperaturu | 160°C |
| Alışma temperaturu | 350°C |

Bu cədvəldə əks olunan texniki göstəricilər statistik məlumatlara əsaslanır və təminat verilmiş minimum göstəriciləri ifadə etmir. Test olunmuş göstəricilər tələb olunarsa, texniki departamentdən satış spesifikasiyalarını xahiş etməklə onları əldə edə bilərsiniz.

### SƏRFİYYAT

Liflə möhkəmləndirilmiş beton üçün tələb olunan spesifik parametrlərdən asılı olaraq hər 1 m$^3$ üçün 2,5-8 kq arasında dəyişir. Adi polad torun əvəzinə nəzərdə tutulan **Master®Fiber 249** materialı, layihə qiymətləndirilməsindən sonra istifadə oluna bilər. O həmçinin, yardımçı polad torlu armaturu da əvəz edə bilər.

# MasterFiber® 249

## Tökmə betonların gücləndirilməsi üçün struktur polipropilen lifi

### SAXLAMA QAYDASI VƏ SAXLAMA MÜDDƏTİ

Material 60°C aşağı temperaturlarda saxlanılmalıdır. Material oddan qorunmalıdır. Orijinal qablaşdırmada, normal saxlama şəraitində, ağzı acılmamış qablaşdırmada saxlama muddəti 24 ay təşkil edir.

### TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ

**Master®Fiber 249** materialı yüksək səviyyədə dayanıqlıdır, sağlamlıq üçün cüzi təhlükə yaradır. Buna baxmayaraq, yanğın hallarında dəm qazı, karbon dioksid qazı və digər qazlar və tüstülər kənarlaşdırılmalıdır.

### QEYD:

İş sahəsi üzrə texniki xidmət, supervayzerin məsuliyyət çərçivəsinə daxil deyil. Əlavə məlumat üçün Master Builders Solutions şirkətinin yerli nümayəndəsinə müraciət edin. Master Builders Solutions şirkəti, qəbul edilmiş sınaq metodları ilə aşkar olunan hər hansı bir problemin həqiqi səbəbini öyrənmək hüququnu özündə saxlayır.

### MATERİALLA DAVRANIŞ QAYDALARI VƏ DAŞINMASI

Hər hansı bir kimyəvi maddə ilə bağlı standart təhlükəsizlik tədbirləri görülməlidir. Misal üçün, qoruyucu əlcək və gözlüklərdən istifadə olunmalıdır. İş fasiləsindən əvvəl və işlər tamamlandıqdan sonra əllər yuyulmalıdır. İşlər görülən zaman yemək, içmək və ya siqaret çəkmək olmaz.
Məhsulun tullanması və onun qablaşdırılması son istifadəçinin məsuliyyətindədir və bu proseslər mövcud qanunvericiliyə əsasən həyata keçirilməlidir.

### MÜHÜM QEYDLƏR

Məhsulu istifadə etmədən əvvəl ilkin sınaqların keçirilməsi tövsiyə olunur.
Bizim texniki departament ilə ilkin olaraq məsləhətləşmədən, material tövsiyə olunan dozadan çox və ya az istifadə edilməməlidir.



**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az